# Təbib

**Təsisçi:** Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 02 (1663) 31 yanvar 2018 - ci il Qiyməti 50 qəpik


# Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak edib

**Yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi.

Sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Naxçıvan Muxtar Respublikasındakı "Nəqşicahan Holdinq" şirkətlər qrupunun "Duzdağ Müalicəvi İstirahət Mərkəzi"nin direktoru Novruz Novruzov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Neftçala Sənaye Məhəllləsinin direktoru Nəriman Xəlilov, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Ağdam rayonundakı Heyvandarlıq Kompleksinin direktoru Fuad Əyyubzadə, Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Saatlı rayonundakı "Aqro-Az" Məhdud Məsuliyyətli Cəmiyyətinin (pambıq istehsalı və emalı) rəhbəri Vahid Hüseynov, Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış etdilər.

Dövlətimizin başçısı konfransda yekun nitqi söylədi.




**BU SAYIMIZDA**


REZİDENTURA DİPLOMDANSONRAKI TİBBİ KADRLARIN HAZIRLANMASINDA ƏSAS STRATEJİ SAHƏDİR 2



Tibb Universitetində 20 Yanvar şəhidlərinin əziz xatirəsi yad edilib


3

Rezidentlərlə görüş olub 5

Azərbaycanlı plastik cərrahın təklif etdiyi yeni bərpa üsulu ABŞ-da dərsliyə daxil edildi 4

Görkəmli alimin 120 illik yubileyi keçirilib 5



İctimai nəzarət və məsləhət şurası imtahanın gedişini izlədi 4



Rezidentlərin seminarı - Yan amiotrofik skleroz xəstəliyi haqqında müzakirə 7

"Əczaçılıq analizində spektro fotometriyanın tətbiqi" mövzusuna həsr olunmuş növbəti konfrans keçirilib 7

Tədris Terapevtik Klinikada müəlimlər üçün seminar olub 7

BÖYÜK ELMİ ŞURADA

# REZİDENTURA DİPLOMDANSONRAKI TİBBİ KADRLARIN HAZIRLANMASINDA ƏSAS STRATEJİ SAHƏDİR

◆ Yanvarın 30-da Böyük Elmi Şuranın növbəti iclası keçirildi. İclasa sədrlik edən ATU- nun rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna xanım Əliyevanı yubileyi münasibətilə təbrik etdi.

Ona göstərilən diqqətə görə təşəkkürünü bildirən Rəna xanım həyatının bütövlükdə tibblə bağlı olduğunu, bu sahədəki əməyinin həmişə yüksək qiymətləndirildiyini və ömrünün qalan hissəsini də öz xalqına xidmətə həsr edəcəyini dedi.

Bundan sonra rezidentura şöbəsinin müdiri, professor Rizvan Məmmədovun "Azərbaycan Tibb Universitetində rezidentura təhsili mərhələsində həkim mütəxəssislərin hazırlanmasının vəziyyəti və kollektiv qarşısında duran vəzifələr" barədə hesabatı dinlənildi.

Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən və ulu öndər Heydər Əliyev cənablarının yenidən hakimiyyətə gəlməsindən sonra ölkədə təhsil və səhiyyə sahəsində geniş islahatlara başlanıldığını vurğulayan məruzəçi əsas məqsədlərdən birinin Azərbaycan təhsilini və səhiyyə sistemini Avropa standartlarına yaxınlaşdırmaq və inteqrasiya etmək olduğunu, bu işin ulu öndərin davamçısı möhtərəm prezident İlham Əliyev cənablarının hakimiyyəti dövründə daha əzm və sürətlə inkişaf etdirildiyini söylədi.

Yeni qəbul olunmuş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"na görə təhsilin məzmunu, proqramın strukturuna qoyulan tələblər, rezidenturaya hazırlıq, təhsilin dövlət hesabına və ya ödənişli əsaslarla aparılması, təhsil proqramında auditoriya saatlarında həftəlik dərs yükü (6 saatdan çox olmamaqla), təhsil proqramlarının təsdiqi qaydaları, rezident rəhbərlərinə qoyulan tələblər, rezidentlərin dövri və yekun attestasiyasının aparılması, rezidenturaya xitam verilməsi və digər məsələlərin öz əksini tapdığını diqqətə çatdıran R.Məmmədov bildirdi ki, rezidenturada həkim-mütəxəssis hazırlığı aparılacaq bazaların təhsil, elm müəssisələri və aparıcı klinikaların təyin edilməsi Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilir: "2011/2012-ci tədris ilində kliniki bazaların sayı cəmi 10 idisə, ildən-ilə onların sayı artaraq 2016/2017-ci tədris ilində 41-ə çatdırılmışdır".

Məzun rezidentlərimizdən sonra hazırda I kursda 110 (9 xarici), II kursda 154 (10 xarici), III kursda 174 (13 xarici), IV kursda 106 (4 xarici) və V kursda 31 nəfər olmaqla 34 ixtisas üzrə 575 nəfər (keçən il 643) rezidentin təhsilini davam etdirdiyini xatırladan şöbə müdiri onu da bildirdi ki, rezidentlərin tibbi biliklərini və kliniki bacarıqlarını artırmaq məqsədilə klinikalarda, kafedra və şöbələrdə müxtəlif tədbirlər həyata keçirilir.

R.Məmmədov hesabat məruzəsində 2013-cü ildən başlayaraq Azərbaycan Tibb Universitetinin xarici ölkə universitetləri ilə, xüsusən qardaş Türkiyə Cümhuriyyətinin universitetləri ilə bağlanmış ikitərəfli müqavilələrə əsasən rezidentlərimizin xaricdə rotasiya keçməsinə də toxundu: "2017-ci ildə ümumilikdə 69 rezidentimiz 14 ixtisas üzrə 3-10 ay müddətində xaricdə rotasiya keçmişdir. Onlar ən çox Türkiyənin İstanbul, Ankara, Qazi, Hacıtepe, Akdeniz, Samsun şəhərinin 19 Mayıs, Kayseri şəhərinin Erciyes, Ege, Sivas şəhərinin Cumhuriyyət Universitetlərində, Koceli, İnönü, Karadəniz Universitetlərində, Almaniyada, Fransada, ABŞ-da, Avstriyada rotasiyada olmuş, 21 nəfər isə 8 ixtisas üzrə öz rotasiyalarını davam etdirirlər. Rotasiya ilə bağlı onu da əlavə etmək istəyirəm ki, 2013-cü ildən respublika üzrə digər bazalardan olan rezidentlər də bəzi ixtisaslar üzrə bizim universitetin klinikalarında rotasiya keçməyə başlamışlar. 2016-cı ildə 82 nəfər, 2017-ci ildə isə 198 nəfər





digər bazalardan bizim klinikalarımızda rotasiyada olmuşlar. Bu rotasiyalar müvafiq bazaların rəhbərlərinin bizim universitetimizin rektoruna ünvanladığı müraciəti əsasında rektorun əmri ilə rezidentura şöbəsinin nəzarəti altında həyata keçirilir. Rotasiya qurtardıqdan sonra bir qayda olaraq həmin rezidentlərə xasiyyətnamə və rotasiyada olduqları müddət üçün tabel verilir".

Rezidentlərin yüksək səviyyəli həkim-mütəxəssis kimi yetişmələrində, onların daim öz biliklərinin artırılmasında kliniki fəaliyyətlə bərabər, elmi-tədqiqat işlərinin aparılmasının da vacibliyini önə çəkən R.Məmmədov "ATUREK" adı altında keçirilən konfranslara həm elmi işlərin, həm də onların əhatə etdiyi ixtisasların sayının ildən-ilə artdığını dedi: "2013-cü ildə cəmi 10 ixtisas üzrə 58 elmi iş çap edilmişdirsə, 2016-cı ildə "ATUREK-4"-də 21 ixtisas üzrə 176, 2017-ci ildə "ATUREK-5"-də isə 24 ixtisas üzrə 192 elmi iş çap edilmişdir. Bundan başqa, elmi işlərə ancaq ATU-nun rezidentləri deyil, digər bazaların rezidentləri də fəal qoşulmağa başlamışlar. 2016-cı ildə "ATUREK-4" adı altında keçirilən elmi-praktik konfransda hörmətli rektorumuz tapşırıq verdi ki, növbəti elmi- təcrübi konfranslarda ancaq tibb universitetinin deyil, digər baza və klinikaların rezidentləri də daha fəal iştirak etsinlər. Bunun nəticəsi olaraq 2017-ci ildə keçirilən "ATUREK-5" adlı elmi-praktik konfransda digər bazalardan 28 elmi iş təqdim edildi".

Hesabat məruzəsində rezidentura təhsilində dövri və yekun attestasiyaya hazırlıq və onların keçirilməsi qaydalarına da geniş yer ayıran məruzəçi qeyd etdi ki, yekun attestasiyaya hazırlıqla əlaqədar bir çox ixtisaslar üzrə həm test, həm də kliniki bacarıq suallarının hazırlanmasında əvvəlki illərdə olan bəzi çatışmazlıqlar aradan qaldırılmışdır.

Artıq 7 ildir ki, diplomdansonrakı tibbi kadrların hazırlanmasında əsas strateji sahə kimi rezidenturada həkim-mütəxəssis hazırlığının davam etdirildiyini vurğulayan natiq 40-dan çox tibb və təhsil müəssisəsində rezidentura təhsili aparıldığını və bunların içərisində Azərbaycan Tibb Universitetinin istər professor-müəllim heyətinin kadr potensialına, istərsə də maddi-texniki bazanın səviyyəsinə və keyfiyyətinə görə müsbət mənada fərqləndiyini dedi.

Hesabatda rezidentləri narahat edən xəstə azlığı, təcili yardım, toksikologiya, kompyuter tomoqrafiya və MRT üzrə rotasiyaların çətinlikləri, bəzi kafedra müdirləri ilə klinika rəhbərləri arasında tabellərin doldurulması ilə əlaqədar anlaşılmazlıqlar və kuratorların fəaliyyəti ilə bağlı məsələlər də öz əksini tapdı.

Əvvəlki illərdə hər bir klinikamızda elmi-tədris mərkəzinin yaradıldığını, əksər rezidentlər üçün multi-media sistemi ilə təchiz olunmuş otaqların ayrıldığını, attestasiyaların virtual test mərkəzində kompyuter vasitəsilə aparıldığını, müxtəlif ixtisaslar üzrə tədris proqramlarının təkmilləşdirilməsi prosesinin davam etdirildiyini söyləyən şöbə müdiri yeni təkliflərini də şura üzvlərinin diqqətinə çatdırdı.

Çıxışının sonunda rezidentura pilləsində təhsilin səviyyəsini daha da yaxşılaşdırmaq və müasir tələbatlara uyğun qurmaq üçün xeyli işlərin görülməsinə baxmayaraq hələ də görüləcək işlərin çox olduğunu söyləyən R.Məmmədov respublikamız üçün xüsusi əhəmiyyətə malik olan rezidentlərin hazırlığı ilə əlaqədar müzakirələr zamanı deyiləcək irad və təkliflərə görə öncədən öz minnətdarlığını bildirdi.

Məruzə ətrafında çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev xəstələrin sayının azlığı səbəbindən rezidentlərin gündəlik məşğulluğunu, əməliyyatlarda iştirakını təmin etməyin çətinliyindən söhbət açdı. Eyni zamanda rezidentlərlə ciddi məşğul olmağın digər formalarının da nəzərdə tutulduğunu, bunlara seminarlar, konfranslar, xəstə müzakirələri, "master klass" adlanan bacarıq dərsləri, tədris-treyninq mərkəzindəki məşğələlərin aid olduğunu söyləyərək rezidenturadakı gender probleminə də toxundu: "Klinikamızda təlim keçən 210 rezidentdən 155-i qız, 55-i oğlandır. Ümumi cərrahiyyə və uşaq cərrahiyyəsi şöbələrində 59 rezidentdən 39-u, iki mama-ginekologiya kafedrasındakı 51 rezidentin hamısı qızlardır. Mən heç də qadınların istədikləri sənətdə təmsil olunmasının əleyhinə deyiləm. Lakin tarixən cərrahlıq kişi sənəti olmuşdur. Burada qətiyyət, əzmkarlıq, cəsarət, fiziki və mənəvi gərginlik tələb olunur. Cərrahiyyə ailə və uşaq qayğıları ilə daha çox bağlı olan qadınlar üçün bir qədər çətin sahədir. Ona görə də rezidenturaya qəbul zamanı bu amilə diqqət verilməsi, çətin də olsa oğlanlar üçün müəyyən kvota qoyulmasının məqsədəuyğunluğu məsələsinə də baxılmalıdır. Əks halda biz gələcəkdə cərrahiyyədə yalnız qadınların təmsil olunduqlarını görəcəyik".

Rezidentlərin iş prinsipindən danışan II mamalıq-ginekologiya kafedrasının müdiri, professor Hicran xanım Bağırova gələcəkdə hər bir rezidentin attestasiyadan bir müddət əvvəl təhsil aldığı bazada bir xəstəni əməliyyata hazırlayaraq təşkil olunmuş komissiya üzvləri qarşısında əməliyyatı əyani surətdə nümayiş etdirməsi təklifi ilə çıxış etdi.

Rezidentura proqramları barədə fikirlərini bölüşən I daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov müəllimlərin bir qisminin rezidentlərlə işə vicdanla yanaşmamasını, test suallarının primitivliyini təəssüflə dilə gətirdi. Onu da bildirdi ki, rezidentlərə rotasiyanın sonunda xasiyyətnamə əvəzinə onun fəaliyyətini əks etdirən hesabat təqdim edilsə daha effektli olardı.

Tədris Stomatoloji Klinikanın direktoru, dosent Alqış Səfərov aparıcı mütəxəssislərin rəhbərliyi altında müalicə işi ilə məşğul olan rezidentlər üçün klinikada əlverişli şərait yaradıldığını söylədi. Fəal praktiki fəaliyyəti ilə seçilən rezidentlərin stomatoloji klinikalarda işə dəvət edilməsini müsbət hal kimi qiymətləndirdi.

Ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov gigiyena fənninin peşə yönümlü təməl fənni olmasını nəzərə alaraq onun daha yuxarı kurslarda, minimum III kursda tədris olunması, profilaktika istiqamətli fənlərin bir ad altında müalicə ixtisası üzrə təhsil alan həkimlərin dövlət imtahanları sırasına daxil edilməsi təklifini irəli sürdü.

Müzakirələri yekunlaşdıran Gəray Gəraybəyli rezidentura pilləsinə keçidin strateji cəhətdən son 7 il ərzində tibb təhsili sahəsində aparılan islahatların ən vacibi olduğunu vurğuladı: "ATU-nun Böyük Elmi Şurasında hər il rezidentura şöbəsinin hesabatı dinlənilir. Bu heç də təsadüfi hal deyil, rezidentura universitetimiz və bütövlükdə tibb təhsili üçün əhəmiyyətli göstəricidir. O vaxt təcili olaraq rezidentura pilləsinə keçməsəydik, müəyyən illəri də itirmiş olardıq. Artıq 7 illik təcrübədə istər kurator, istərsə də proqramların təkmilləşdirilməsi nöqteyi nəzərindən böyük irəliləyişlər var".

Çıxışlarda səslənən problemlərə də münasibət bildirən rektor bəzi bazalarda rezidentlərə yad münasibətin hələ də davam etdiyini, ancaq buna baxmayaraq bir çox müsbət nümunələrimizin olduğunu da söyləyərək Tədris Terapevtik Klinikanın kardiologiya şöbəsində rezidentlərin Fərid Əliyevin rəhbərliyi altında vahid bir komanda şəklində çalışmasını nümunə kimi göstərdi. Qeyd etdi ki, tələbələr üçün təhsil və tədris prosesinin düzgün qurulduğu kafedralarda rezidentlərə münasibət də qənaətbəxşdir: "Ordakı xəstələr bəlkə də digərlərindən çox deyil, amma "xəstələr yoxdur" şikayəti gəlmir. Çünki yeni, müasir, həm rezidentlər üçün maraqlı, həm də effektiv olan tədris metodları tətbiq olunur. Burada kimsə haqlı olaraq xatırladı ki, bir çox Avropa ölkələrində, Amerikada heç də bütün tələbələr və rezidentlər xəstə üzərində öyrənmir, əlavə tədris mexanizmləri mövcuddur".

Rezidentlərə rəhbərliklə bağlı problemlər üzərində xüsusi dayanan rektor bu istiqamətdə təkmilləşdirməyə ehtiyac olduğunu şura üzvlərinin diqqətinə çatdırdı. Səhiyyə nazirliyinin rəhbərliyinin də rezidentura təhsilini daim diqqət mərkəzində saxladığını vurğulayan G.Gəraybəyli bu istiqamətdə ciddi iş aparıldığını və yeni islahatların gözlənildiyini, rezidentura hazırlığında ATU-nun rolunun daha da artırılmasını nəzərdə tutulduğunu söylədi.

Məruzədə və çıxışlarda səslənən digər məsələlərə də aydınlıq gətirən universitetin rəhbəri Böyük Elmi Şuranın fəaliyyətindəki dəyişikliklər haqqında da məlumat verdi.

ATU-nun nəzəri kafedralarında çalışan professor-müəllim heyyətinə verilən maddi yardımlarının 01.03.2018-ci il tarixindən artırılması, ATU-da tədris edilən bəzi fənlərin ixtisar edilməsi, elmlər doktoru işlərinin mövzusunun və elmi məsləhətçinin təsdiq edilməsi, çapa tövsiyə edilən əlyazmalar barədə təklifləri təsdiqləyən elmi şura müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

QAN YADDAŞIMIZ

# Tibb Universitetində 20 Yanvar şəhidlərinin əziz xatirəsi yad edilib

◆ Azərbaycanda baş verən Qanlı Yanvar faciəsindən 28 il ötür. Bu müddət ərzində şəhid məzarları zamanın qan yaddaşına köçür, xalqımızın müqəddəs and yerinə çevrilərək ehtiramla yad olunur.



Yanvarın 18-də ölkəmizin hər yerində olduğu kimi Azərbaycan Tibb Universitetində də 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasim iştirakçıları ilk öncə torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canlarından keçən igid Vətən övladlarının ruhunu bir dəqiqəlik sükutla yad ediblər.





Sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli 20 Yanvar hadisələrini Azərbaycan xalqının müasir tarixinin ən faciəli səhifələrindən biri kimi qiymətləndirib: "Həmin gecədən 28 il keçir. Biz hamımız həmin faciənin canlı şahidləri olmuşuq. İllər keçdikcə, 20 Yanvar gecəsi ərəfəsində baş verən proseslər, onların siyasi qiyməti daha dolğun verilir. Analiz etsək, həmin proseslərdə bir neçə əsas məqamı vurğulamaq lazımdır. Əvvəla, o dövrdə sovet məkanında bir çox ölkələrdə xalq hərəkatı başlamışdı. İmperialist qüvvələr müxtəlif şəhərlərdə təxribatlar törədirdi. Lakin yalnız Azərbaycan xalqına qarşı qısamüddətli müharibə elan olundu. Çünki 19-dan 20-nə keçən gecə Bakı şəhərində və digər yerlərdə baş vermiş əməliyyatar sözün əsl mənasında "qısamüddətli bir müharibə idi".

Sözünə davam edən G.Gəraybəyli ötən əsrin 90-cı ilində ölkəmizin müstəqilliyi və azadlığı uğrunda küçələrə çıxmış vətəndaşlarımıza qarşı insanlığa sığmayan vəhşiliklərin törədildiyini xatırladıb: "Azərbaycan xalqının həyatında belə hadisələrdən biri 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə baş verib. Bu hadisənin mahiyyəti illər keçdikcə daha da dərinləşir, böyük əhəmiyyət kəsb etməyə başlayır. Əliyalın insanlara qarşı ağır texnika, tanklarla vəhşicəsinə hücum edildiyi, insanların güllələbaran olunduğu bu gecə xalqımızın tarixindəki böyük faciələrindən biridir. Təsadüfi deyil ki, bu tarixi gün milli dirçəlişimizin vacib mərhələlərindən biri kimi hesab olunur . Həmin günlərdə azadlıq mücadiləsinə qalxmış xalqın iradəsini qırıb böyük imperiyanı saxlamaq istəyirdilər. Amma xalqın iradəsi, mərdliyi sayəsində onların bu planları reallaşa bilmədi. Hətta qadınlarımız öz vətənlərini qorumaq üçün təpədən-dırnağa qədər silahlanmış ordunun qarşısına əliyalın çıxmışdılar. Odur ki, bu qanlı gün bizim tariximizə faciə ilə yanaşı, həm də əsl igidlik, qəhrəmanlıq səhifəsi kimi daxil olub. Xalqımız öz qanı bahasına azadlığına qovuşub".

G.Gəraybəyli tarixə ekskurs edərək həmin dövrdə sovet mediasının 20 Yanvarla bağlı yanlış məlumatlar yaydığını, əsil baş verənlərin ictimaiyyətdən gizlədildiyini, çox az sayda itkinin olduğu haqda məlumatlar yaydığını dedi: "Yalnız o dövrdə xalqımızın dahi oğlu Heydər Əliyevin həyatını təhlükə qarşısında qoyaraq ailəsilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək kəskin bəyanat verməsi və əsl günahkarların tapılıb cəzalandırılmasını tələb etməsi nəticəsində həqiqəti əks etdirən informasiyalar bütün dünyaya çatdırıldı. Məhz həmin mətbuat konfransında dünyanın nüfuzlu xəbər agentliklərinə bu faciənin səbəbləri haqqında düzgün məlumatlar verildi".

Bu olayların Azərbaycanın müstəqillik tarixi və ondan sonrakı inkişaf dövründə böyük iz qoyduğunu deyən rektor bildirdi ki, Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışından sonra bu istiqamətdə böyük işlər görülüb. Məhz onun təşəbbüsü ilə ilk dəfə bu hadisəyə hüquqi-siyasi qiymət verilib, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün ulu öndər mühüm sənədlər imzalayıb. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm prezidentimiz cənab İlham Əliyev Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən insanların əziz xatirəsinin daim anılması, onların ailələrinin sosial rifah halının yüksəldilməsi, mənzil- məişət şəraitinin yaxşılaşdırılması istiqamətində və bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə göstərişlər verib.

İctimai fənnlər kafedrasının professoru Fəxrəddin Məmmədov məsələlərə bir tarixçi kimi nəzər salaraq Azərbaycan xalqının tarixən mübariz xalq olduğunu bildirib: "Bu hadisələr mahiyyət etibarilə Azərbaycan xalqının milli azadlıq tarixinin qürur duyulası bir səhifəsidir, çünki bir tərəfdə azadlıq üçün mübarizə aparan xalq, digər tərəfdə isə həmin azadlığın qəsdinə durmuş sovet imperiyası dayanırdı. 20 yanvar hadisələri iradənin silaha, inamın ölümə qalib gəldiyi məqam idi. Bakının küçələri, evləri, yoldan keçən maşınları atəşə tutuldu. Həmin vaxt qoşunun gəldiyi yerlərdə bu gəlişə etiraz olaraq müqavimət sipərləri quran insanlar arasında cəmi 43 nəfər həlak olmuşdu, qalan insanlar evində, həyətində, mənzilində qətlə yetirilmişdi.

Sovet imperiyasının Bakıya 50 min nəfərə yaxın qoşun kontingenti yeritməsinə baxmayaraq, bu ordu insanları yalnız qətl edə bildi, onları diz çökdürə bilmədi və bu mənada Azərbaycan xalqı şəhidlər verməsinə, minlərlə yaralıları olmasına, yüzlərələ insanların həbslərə düşməsinə baxmayaraq, sınmadı, mübarizəni davam etdirərək milli istiqlalını qazandı."

III cərrahi xəstəliklər kafedrasının müdiri, professor Məmməd Nəsirov 20 Yanvar gecəsi baş verənlərlə bağlı öz xatirələrini danışdı: "Həmin dövrdə mən həm dekan idim, həm də cərrah idim. Yanvarın 21-də - dəhşətli gecənin səhəri çətinliklə də olsa işə getdik. Əməliyyatxananın qalın şüşələri sınıq-salxaq idi. Bu cür şəraitdə insanları əməliyyat edirdik. Yaralıların çoxu gənclər idi. Onların əksəriyyətində iri-çaplı yaralar vardı. Çoxuna 1 deyil, 2-3 güllə vurulmuşdu. Həmin gecə açılan ölümsaçan güllələrin bir neçəsi indi də mənim stolumun üstündədir" deyən professor qeyd etdi ki, bu faciədən 28 il keçməsinə baxmayaraq, 20 yanvar hadisələri hər kəsin yaddaşına əbədi həkk olunub: "Biz hamımız bu gün qazndığımız müstəqilliyimizə görə məhz həmin şəhidlərə borcluyuq". M.Nəsirov həmin hadisədə ağır şəraitdə işləyən azərbaycanlı həkimlərin göstərdiyi şücaətlərdən də söz açdı. O, xatırlatdı ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən qırğında universitetimiz də 9 şəhid verib.

Tələbələr adından çıxış edən I müalicə profilaktika fakültəsinin III kurs tələbəsi Pəri Məhərrəmova 20 Yanvar şəhidlərinin qanının yerdə qalmayacağını, Azərbaycan torpaqlarının tezliklə işğaldan azad olunacağından əminliyini dedi. Şəhidlərin heç zaman unudulmayacağını, respublikamızda və eləcə də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən soydaşlarımızın qəlbində əbədi yaşayacaqlarını söyləyən P.Məhərrəmova layiqli bir həkim kimi gələcəkdə Qarabağda işləmək arzusunda olduğunu bildirdi.

Toplantını yekunlaşdıran rektor bu hadisələr barədə kifayət qədər kitabların çap edildiyni, şəhidlərə qəhrəmanlıq dastanları yazıldığını, sənədli filmlər çəkildiyini vuğulayaraq Azərbaycanın hər bir övladının bu hadisə haqqında geniş məlumatı olduğunu və saatlarla danışa biləcəyini söylədi. Onun sözlərinə görə, 20 Yanvar hadisələri tariximizdə bir dönüş nöqtəsi olaraq milli qürurun formalaşmasında, müstəqilliyin qorunub saxlanılmasında, bizim dünya xalqları arasında özünəməxsus yer tutmağımızda böyük rol oynayıb.

**Mənsur ƏLƏKBƏRLİ**

---

## Eldar İSMAYIL

*20 yanvar şəhidlərinə*

## BAKI AL-QAN İÇİNDƏ

Bakı tufan içində,
Bakı al-qan içində.
Yanır divar, yanır daş,
Tüstü, duman içində.
Küçələri çığnayıb
Tanklar şığıyıb keçir.
Döngələrdə, səkidə
Avtomatlar qan içir.
Günahsız insan qanı
Axır asfalt üstündə.
Cəllad sifət əsgərlər
Qoca-cavan qəsdində.
Güllə ilə vurulan
Tankla tapdanır bir də.
Bu günahsız qadınlar
Güllələnir evində.
Qonşuya gedən yerdə.
Meyitlər döşənibdir
Küçə boyu yan-yana.
Axıb çay tək qarışır
Torpaq üstə qan-qana.
Qalxıb göyə yüksəlir
Fəryad səsi, ah səsi.
Dolu kimi tökülür
Qarbaçovun gülləsi!
Divarlar deşik-deşik,
Səkilər qazım-qazım.
Dərd üstündə əsirəm,
Bu dərdi necə yazım?
Ağlayır ata-ana,
Ağlayır oğul-uşaq.
Yaralılar, meyitlər
Üst-üstə, qalaq-qalaq,
Allah, bu nə zülümdü,
Zülüm özü ölümdü!
Belə zülüm görməmiş
Tarix özü heç zaman.
Vəhşi faşist ordusu
Vermir millətə aman.
Yaralını götürən
Həkimlər güllələnir.
Pəncərədən boylanan
Sakinlər güllələnir.
Şümşad boylu körpələr
Qızıl qana boyanır!
Üz tutaraq göylərə
Yana-yana deyirəm:
- Allah əli olmayan
Bu taxt-taca min lənət!
Milləti məlul qoyan
Bu hərraca min lənət!

# Azərbaycanlı plastik cərrahın təklif etdiyi yeni bərpa üsulu ABŞ-da dərsliyə daxil edildi

**Azərbaycanın tanınmış plastik və rekonstruktiv cərrahı, t.u.e.d., professor Vaqif Qələndərin təklif etdiyi və bərpa əməliyyatlarında tətbiq etdiyi yeni üsul ABŞ-ın nüfuzlu universitetinin dərsliyinə daxil edilib. ABŞ-ın Florida Tibb Kolleci Universitetinin (Jacksonville) dosenti, üz-çənə cərrahiyyəsi şöbəsinin rəhbəri, mikrovaskilyar cərrahiyyənin direktoru Rui Fernandesin müəllif olduğu "Baş və boyun nahiyəsi rekonstruksiyası üzrə cərrahiyyədə yerli və regional fleplər. Praktiki yanaşma" adlı dərsliyə V.Qələndərə məxsus xüsusi bərpa üsulu ayrıca fəsil kimi daxil edilib. Dərsliyin 20-ci fəsli V.Qələndərin təklif etdiyi "Süd vəzinin fasial-dəri fleb diaqnozlu daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsuluna həsr olunmuşdur. Burada azərbaycanlı cərrahın təklif etdiyi və uzun illərdən bəri tətbiq etdiyi xüsusi bərpa üsulundan bəhs olunur.**

seçilərək beynəlxalq mükafat və diploma layiq görülmüş, eləcə də dünyanın impakt faktorlu nüfuzlu jurnallarında nəşr olunmuşdur.

Hazırda ABŞ, Yaponya, Türkiyə, Brazilya, Çili, Koreya və bir çox başqa ölkələrin qabaqcıl nüfuzlu klnikalarında bu üsulla cərrahiyyə əməliyyatları həyata keçirilir.

Xatırladaq ki, Vaqif Qələndər Plastik və Rekonstruktiv cərrahiyyə ixtisası uzrə tələbələrin və rezidentlərin hazırlanması üçün Azərbaycan Tibb Universitetində ilk dərslik və dərs vəsaitinin müəllifidir. Cərrahın özünə məxsus altı yeni cərrahiyyə üsulu, 78 elmi əsəri xarici ölkə jurnallarında nəşr olunub və konfranslarda məruzə edilib. V.Qələndər bir çox müərkkəb əməliyyatları, o cümlədən







V.Qələndərin sözlərinə görə, təklif olunmuş yeni bərpa üsulu 1999-cu ildə Səhiyyə nazrliyinin və ATU-nun xususi icazəsi ilə Azərbaycan məhkəmə tibbi ekspertizasının morqunda insan meyitləri üzərində aparılan araşdırmalardan sonra oz təsdiqini taparaq tədbiq edilməyə başlanmışdır. Araşdırmalar nəticəsində süd vəzinin və döş qəfəsi toxumalarının rekonstruksiyası üçün yeni üsul təklif olunmuşdur. 1999-cu ildə Türkiyədə keçirilən Ümumdünya Plastik-Rekonstruktiv Cərrahiyyə Konqresində təqdim olunmuş bu üsul 360 ixtira içərisindən dirsəkdən qopmuş qolun 6-8 saatdan sonra təkrar yerinə replantasiyası (bərpa olunması) əməliyyatını müvəffəqiyyətlə həyata kecirib. O, 30-dan çox xarici ölkə elmi konfranslarında məruzəçi qismində iştirak edib. Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyinin qurucusu və sədri kimi V.Qələndər Bakıda 3 dəfə beynəlxalq Plastik və Rekonstruktiv cərrahiyyə üzrə beynəlxalq konfransların bilavasitə təşəbbüskarı və təşkilatçısı olmuşdur. O həmçinin, Beynəlxalq Plastik Cərrahiyyə Assosiasiyasının idarə heyətinin həqiqi üzvüdür.

# İctimai nəzarət və məsləhət şurası imtahanın gedişini izlədi

**Yanvarın 23-də ATU-nun rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurası (İNMŞ) növbəti reydini keçirib. 5 saylı tədris binasında keçirilən monitorinqdə şuranın üzvləri - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli, ATU-nun əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, "Gənc vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva və tələbə-dekan Məhərrəm Alimli iştirak ediblər.**

götürmədikləri araşdırıldı. Bəlli oldu ki, imtahan prosesi qaydalara uyğun gedir və heç bir qüsur yoxdur. Sonra şura üzvləri Apellyasiya Komissiyasının fəaliyyəti ilə də tanış oldular. Komissiyanın sədri, professor Surxay Musayev gün ərzində 7 müraciətin daxil olduğunu, onların içərisində əsaslı və əsassız şikayətlərin yer aldığını bildirdi. Müraciətlərin əsasən imtahanlara düşən test suallarındakı anlaşılmazlıqlarla bağlı edildiyini bildirən sədr, bu barədə ədalətli ölçü götürüldüyünü qeyd etdi. Həmçinin aşkar edilmiş qüsurların anında aradan qaldırıldığını vurğuladı.

Sonra Azərbaycan dili və ictimai fənnlər kafedralarına baş çəkildi. Davamiyyət jurnalına baxış keçirilərkən bəzi əməkdaşların nizam-intizama



Əvvəllər də yazdığımız kimi, reydlərin aparılmasının əsas məqsədi tələbələrin fikirlərini, rəylərini, şikayətlərini və təkliflərini öyrənməklə ictimailəşdirmək, qarşıya çıxan problemlərin həllinə nail olmaqdır.

Monitorinq zamanı imtahanın gedişi izlənildi. Tələbə biletləri, yanaşı əyləşdirilən tələbələrin eyni fəndən imtahan verib-vermədikləri, özləri ilə imtahan zalına telefon götürüb- riayət etməməsi hallarına rast gəlindi. Bu barədə qeydlər aparıldı və bildirildi ki, reydin nəticələri barəsində rəhbərliyə ətraflı məlumat veriləcək.

Şura üzvləri iqtisadiyyat fənni ilə bağlı tədris olunan proqramla da maraqlandılar. Müəllimlər elmi araşdırmalar aparmaq məqsədilə bəzi arxiv və kitabxanalarda işləmək üçün onlara normal şəraitin yaradılması təklifini şura üzvlərinin diqqətinə çatdırdılar.

# İki şöbənin 2017 -ci ilə həsr olunmuş illik hesabatı dinlənildi

**Yanvarın 25-də Tədris Terapevtik Klinikada şöbələrin 2017-ci ilə həsr olunmuş illik hesabatı dinlənilib.**



İclasda çıxış edən direktorun müavini Adil Nuriyev şöbələrin hesabat xarakterli iclaslarının keçirilməsinin vacib xarakter daşıdığını bildirib.

Revmatologiya və qastroenterologiya şöbəsinin müdiri, professor Sahib Musayev bu şöbənin 2017-ci il üzrə illik hesabatını şura üzvlərinin diqqətinə çatdırıb.

Professor S.Musayev şöbədə müalicə alan xəstələr, xəstələrə qoyulan diaqnozların düzgün nəticələrə əsaslandığını bildirib və qeyd edib ki, həkimlərin və tibb personalının yüksək xidməti sayəsində şöbəyə və eləcə də klinikaya gələn xəstələrin sayında artım müşahidə edilir.

Daha sonra moderatorluğu professor Sahib Musayevə məxsus sistem sklerozda ağciyərin interstisial dəyişiklikləri barədə həkim-rezident Günel Əsgərova məlumat verib.

O bildirib ki, bu xəstəlik dəri və daxili orqanların fibrozu ilə xarakterizə olunan, birləşdirici toxumanın səbəbi bilinməyən sistem xəstəliklərinə aiddir.

Şöbədə bu xəstəlikdən əziyyən çəkən 53 yaşlı qadınla bağlı danışan, həkim-rezident xəstənin əsas şikayətlərinin hər iki əllərdə göyərmə, ağarma, üz dərisində hiperemik səpkilər, təngənəfəslik, ümumi halsızlıq və s. olduğunu söyləyib.



"Bir çox yerlərdə müəyyən müayinə və müalicələr almasına baxmayaraq, xəstənin vəziyyəti yaxşılaşmayıb. Xəstə klinikaya gətirilən zaman artıq onun üz nayihəsində və əllərində hiss ediləcək dərəcədə dəyişikliklər var idi. Xəstə ilk baxışdan sonra KT və kardioloji müayinəyə göndərildi. KT artıq burada ağciyər dəyişikliklərinin olduğunu təsdiqlədi və bundan sonra müalicələrə başlanıldı".

İclasın davamında Reanimasiya və intensiv terapiya şöbəsinin 2017-ci il üzrə hesabatı haqqında həmin şöbənin reanimatoloqu, dosent Əliyar Sultanov məlumat verib.

Ə.Sultanov ümumilikdə şöbənin iş fəaliyyəti və görülən işlər barəsində danışıb və qeyd edib ki, şöbə müasir standartlara cavab verən aparat və cihazlarla təmin edilib. Bu da görülən işlərin keyfiyyətinin yülsəldilməsi baxımından önəmli xarakter daşıyır.

# "Dissertasiyaların tərtibi qaydaları" mövzusunda seminar keçirilib

**Yanvarın 25-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Dissertasiyaların tərtibi qaydaları" mövzusunda seminar keçirilib.**



Seminarda aspirantlar, doktorantlar və dissertantlar üçün önəmli bilgilər açıqlanıb. ATU-nun Terapevtik və Pediatrik Propedevtika kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Səidə Xanməmmədova çıxışında Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının rəyasət heyətinin qərarları ilə edilmiş dəyişikliklərlə, dissertasiyaların tərtibi qaydaları ilə bağlı seminar iştirakçılarına ətraflı məlumat verib. Keçirilən bu seminarın aspirantlar, doktorantlar və dissertantlar üçün əhəmiyyətini vurğulayan S. Xanməmmədova qeyd edib ki, seminar gələcəkdə bu sahədə görüləcək işlərin keyfiyyətinin yüksəldilməsi baxımından da vacib rol oynayacaq.

**ATU-nun mətbuat xidməti**

# Görkəmli alimin 120 illik yubileyi keçirilib

**Yanvarın 26-da tibb sahəsinin inkişafına töhfələrini vermiş tanınmış alim, görkəmli professor İsmayıl Əbdülxalıq oğlu Axundovun 120 illik yubileyi keçirilib. Tədbiri giriş nitqi ilə açan ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov yubilyar haqında iştirakçılara məlumat verib: "Qədim tarixə malik şərəfli inkişaf yolu keçmiş Azərbaycan tibb elminin və səviyyəsinin dinamik inkişafı bu sahədə çalışan görkəmli tibb mütəxəssisləri və ziyalılarının böyük əməyi nəticəsində olub. Xalqımız ömrünü öz xalqının tərəqqisi, inkişafı naminə sərf edən ləyaqətli övladlarının, ziyalılarının xatirəsini həmişə əziz tutur və ehtiramla yad edir.**



Belə ziyalılardan biri də xalqına təmənnasız xidmətlər göstərmiş, bu gün anadan olmasının 120 illiyini qeyd etdiyimiz, Almaniyanın Münhen Universitetinin məzunu, tibb elmləri doktoru, professor İsmayıl Əbdülxalıq oğlu Axundovdur. Professor İsmayıl Axundov əhalini o dövrdə tüğyan edən malyariyadan və digər yoluxucu xəstəliklərdən xilas



etmək üçün əlindən gələni əsirgəməmişdir. Onun pedaqoji fəaliyyəti və təşkilatçılıq qabiliyyəti dövlət tərəfindən layiqincə qiymətləndirilib..."

Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev İ.Axundovun ömür yolu və tibb sahəsindəki yorulmaz fəaliyyəti ilə bağlı məlumat verib: "... İsmayıl Axundov 1897-ci il dekabrın 8-də Şamaxı şəhərində anadan olub. Kiçik yaşlarından valideynlərini itirən İsmayılın keşməkeşli bir həyat yolu olub. O, 1908-ci ildə Bakıda 2- ci kişi gimnaziyasına daxil olmuş və 1918-ci ildə oranı bitirmişdir. 1919-cu ildə Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olan İ.Axundov 1920-ci ildə Azərbaycan Demokratik Respublikası tərəfindən istedadı nəzərə alınaraq, dövlət hesabına Almaniyaya – Lüdviq Maksimilyan adına Münhen Universitetinin tibb fakültəsində təhsilini davam etdirməyə göndərilir..."

Natiq olduqca istedadlı olan İ.Axundovun universiteti əla qiymətlərlə bitirdiyinə toxunaraq Almaniyada ona yüksək şərait yaradılmasına söz verilsə də, Vətənə dönməyi, millətinə xidmət etməyi hər şeydən üstün tutduğunu qeyd edib. Və nəhayət, bu istedadlı alimin dünyasının dəyişməsində ermənilərin əli olduğunu bildirib. Qeyd edib ki, 1952-ci ildə ermənilərin əli ilə onun yatdığı otaq yandırılıb və dəyərli alim həlak olub.

Professor Ədalət Tahirzadə də Cümhuriyyət dövründə Milli Hökumətin yardımı ilə 100 nəfər gəncin xarici ölkələrdə ali təhsil alması üçün göndərilməsindən danışıb. Onlardan birinin də İsmayıl Axundov olduğunu və Milli Hökumət süquta uğradıqdan sonra tələbələrin əksəriyyətinin təhsillərini yarımçıq qoyduqlarını təəssüflə qeyd edib. Amma İ.Axundovun sonadək təhsilini davam etdirdiyin söyləyib.

Xatirə çıxışlarında professorlardan Əyyub Əzizov, Fəxrəddin Məmmədov da İsmayıl Axundov və onun doğmaları ilə bağlı ürək sözlərini söyləyiblər.

Sonra alimin qızı Nailə Axundova tədbir iştirakçılarına atası haqqında kövrək xatirələrini bölüşüb. Atasının xalq, millət üçün çalışan bir şəxs olduğunu, hər zaman tibbi axtarışlarını etdiyini qeyd edib. Tədbiri təşkil edənlərə təşəkkürünü bildirib.

Tədbir zamanı yubilyarın tibb sahəsindəki fəaliyyətini əks etdirən sənədli film nümayiş etdirilib. İştirakçılar film vasitəsi ilə alim haqqında geniş məlumat əldə edə biliblər.

**Qabil ABDULLAYEV**

# Rezidentlərlə görüş olub

**Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev görüşün məqsədinin klinikada rezidentlərin təhsili, problemləri və bu problemlərin həlli yolunun araşdırılması olduğunu deyib. O bildirib ki, rezidentura ixtisaslaşmış həkim hazırlığında böyül rol oynayır.**




Rezidenturanın əsas məqsədinin müstəqil fəaliyyət bacarığını əldə etmiş, fəal həkim kadrlarının hazırlanması olduğunu qeyd edib: "Yəni rezidenturanı bitirmiş həkim, öz sahəsi üzrə müstəqil fəaliyyət göstərmək, müalicə və əməliyyat etmək bacarıqlarına yiyələnəcək. Dünyada rezidentura sistemi artıq neçə illərdir



ki, tətbiq olunur. Azərbaycan MDB məkanında ilk bu sistemi quran ölkələrdən biridir. Ukrayna, Rusiya, Qazaxıstanda bu sistem yoxdur. Onlarda indi də diskusiyalar gedir ki, diplomdan sonrakı təhsil hansı sistemdə aparılsın. Dövlətin qayğısı nəticəsində bizdə bu sistem artıq var. Bu, böyük nailiyyətdir. Düzdür, bu sahədə müəyyən prblemlər mövcuddur. Amma bu problemləri həll etmək üçün əlimizdən gələni edirik".

Daha sonra TCK-nın direktorunun tədris və elmi məsələləri üzrə müavini, professor Davud Pənahov klinikadakı rezidentlərin fəaliyyəti haqqında monitoriq şəklində çıxış edib. İclasda rezidentlərin fikirləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

İclasda kafedra müdirləri, klinika rəhbərliyi və rezidentlərin kuratorları da iştirak edib.

# Peşəkar həkimlərin sayəsində 32 yaşlı qadın 13 ildən sonra ana oldu

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında tibb elmləri namizədi, dosent, mama-ginekoloq Natəvan Axundovanın köməyilə 32 yaşlı qadın 13 il ərzində iki dəfə problemli hamiləlikdən sonra ana olub.**



N.Axundovanın sözlərinə görə, 32 yaşlı xanım fəsadlaşmış mamalıq anamnezi ilə ona müraciət edib:

"Qadın 13 ildir ailəlidir, övladı yox idi. 2006 və 2008-ci illərdə 2 problemli hamiləliyi olub. İlk hamiləlik 28 həftəsində, ikinci hamiləlik isə 29-30 həftəlikdə ölü döllə doğuşla nəticələnib. Hər iki hamiləlikdə dölün hidropsu (dölün bədəninə maye toplanması) və hamiləliyin ağır patologiyalarından biri olan preeklampsiya (arterial təzyiq 180/110 mm.c.süt, sidikdə zülal) baş verib".

Qadının üçüncü hamiləliyi N.Axundovanın nəzarəti altında olub. Nəhayət, bu xanım bu il yanvarın 9-da doğuş həyata keçirib. Uşağın çəkisi 2 kq 850 qram, boyu 50 sm-dir. Ana və uşaq kafi vəziyyətdə evə yazılıblar.

Qadının ailə üzvləri hamiləliyi əvvəldən sona qədər izləmiş və müvəffəqiyyətlə başa çatdırmış Natəvan xanıma, qeysəriyyə kəsiyi əməliyyatını icra etmiş Arzu İsmayılovaya, neonatoloq Səadət Yaqubovaya, eləcə də ATU Tədris Cərrahiyyə Klinikasının tibb personalına və həkim heyətinə dərin minnətdarlıqlarını bildiriblər.

# Yeddi illik həsrətə son qoyulub...

**Yanvarın 11-də ATU-nun Tədris Cərrahiyyə Klinikada üçəmlər dünyaya gəlib. Ana 7 il ərzində dəfələrlə sonsuzluğa görə müalicə alıb. Müraciətdən sonra ananın səhhəti həkimlərin ciddi nəzarəti altına götürülüb, onun üzərində dəqiq müayinələr və müalicələr aparılıb. Nəticədə yumurtalığın stimulyasiyası fonunda üçəm hamiləliyi meydana gəlib.**



Qeyd edək ki, bu cür hamiləlik çox risklidir. Adi halda hamiləlik 31-32-ci həftəyə qədər davam edir və nəticədə dərin yetişməmiş uşaqlar doğulur. Lakin xəstə üzərində aparılan düzgün müalicə nəticəsində 34 həftə 6 günə, təxminən 35 həftədə qeysəriyyə əməliyyatı vasitəsilə iki oğlan və bir qız dünyaya gəlib. Hazırda üçəmlərin və ananın vəziyyəti kafidir. Oğlanlardan birinin çəkisi 2 kiloqram 220 qram, digər oğlan və qızın çəkisi isə 1 kiloqram 850 qramdır.

Bu barədə klinikanın ikinci mamalıq-ginekologiya kafedrasının assistenti, tibb elmləri üzrə fəlsəfə doktoru, mama-ginekoloq Nərgiz Şəmsəddinskaya ətraflı məlumat verib: "Artıq dörd gün keçib və onlar bu gün evə buraxılırlar. Bu klinikadakı həkimlərin birgə fəaliyyətinin uğurudur. Körpələrin valideynləri paytaxtda deyil, bölgələrdən birində yaşayır. Üçəmlərə nəzarəti davam etdirəcəyik. Rayon xəstəxanası ilə əlaqə yaradıb, həkimlərlə əməkdaşlıq edəcəyik", - deyə mama-ginekoloq bildirib.

**ATU-nun mətbuat xidməti**

# Ömrünü sənətinə həsr edən müəllim



**Bu günlərdə kafedramızın ağbirçəklərindən biri, ömrünü gənclərin təlim-tərbiyəsinə səxavətlə həsr eləmiş Rəhilə Hacıbaba qızı Babayevanın 80 yaşı tamam oldu.**

Rəhilə xanım 1938-ci ilin yanvarın 21-də Bakıda anadan olub. Taleyinə erkən yetimlik payı düşən körpə Rəhilə həyatın ağrı-acılarına mərdliklə sinə gərib. Min bir çətinliklə də olsa, orta məktəbi bitirib. Ailənin ehtiyaclarına görə işləyən, lakin təhsilini artırmağı da unutmayan Rəhilə xanım o zamankı V.İ.Lenin adına Pedaqoji İnstitutun (indiki Pedaqoji Universitet) müəllimlik diplomunu almağa nail oldu. 1962-ci ildə Rəhiləni N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun inzibati binasında işə qəbul edirlər. Uzun illər qüsursuz əmək fəaliyyətini nəzərə alaraq 1980-ci ildə onu Azərbaycan və rus dilləri kafedrasına baş laborant göndərirlər. 1990-cı ildə isə onun çoxdankı arzusu həyata keçdi – kafedraya müəllim seçildi. Müəllim kimi işlədiyi 27 il ərzində Rəhilə xanım tələbələrin, son illərdə isə xarici vətəndaşların təhsil aldıqları hazırlıq şöbəsi dinləyicilərinin məhəbbətini qazanıb, doğma Vətəndən uzaqlarda kövrək qonaq həyatı yaşayan bu gənclərdən ana qayğısını əsirgəməyib. Xarici vətəndaşlarla işləmək müəllimdən yüksək peşə hazırlığı ilə yanaşı, həssas insani münasibət, diqqətli ictimai-siyasi yanaşma da tələb edir. Rəhilə xanımın dərs dediyi qrupların dinləyiciləri Azərbaycan dilinə yiyələnməklə yanaşı, ölkəmizə olan səmimi münasibətləri ilə də seçilirlər. O bu yaşda da fəaldır, açıq dərs aparır, müzakirələrdə iştirak edir, gənclərə nümunə göstərir.

Rəhilə xanım ictimai işlərdə də həmişə fəaldır, ölkəmizin, universitetimizin həyatında baş verən hadisələrə həssas ziyalı mövqeyini nümayiş etdirir. Bütün bunlara görədir ki, kafedrada Rəhilə xanımı hamı özünə ana, bacı, yaxın rəfiqə hesab edir. Biz də bu əlamətdar yubiley münasibətilə Rəhilə xanımı təbrik edir, ona cansağlığı diləyi ilə sevimli nəvələrinin, balaca əlinin xoş günlərini görməyi arzulayırıq. 80 yaşın mübarək, Rəhilə xanım!

**Azərbaycan dili kafedrasının əməkdaşları**

# İşıqlı təfəkkür sahibi

**İxtisasca həkim olan şair, publisist KazımlıFəzail İsmayıl oğlu 1957-ci ildə Azərbaycanın səfalı bölgələrindən olan Gədəbəy rayonunun Nəriman kəndində doğulub. Atası ali təhsilli mütəxəssis kimi, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərib. Ailədə 6 uşaq olublar. Hamısı da ali təhsil alıb, həyatımızın müxtəlif sahələrində çalışırlar. Beş bacının bircə qardaşı olan Fəzail orta məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra, 1974-cü ildə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə qəbul olunub, universiteti cərrahlıq ixtisası üzrə bitirib. O, uzun illər burun, qulaq, boğaz cərrahı kimi fəaliyyət göstərib. Hazırda Elmi-Tədqiqat Mərkəzində baş laborant vəzifəsində çalışır. Aspirantura təhsili almış Fəzail müəllim bu gün adıçəkilən Mərkəzdə elmi işçi kimi fəaliyyət göstərir.**

O, ixtisasca həkim olsa da, həm də tanınmış şair, publisistdir. Başqa sözlə, onun ədəbi yaradıcılığında poeziya ilə publisistika əhəmiyyətli yer tutur. Qeyd edək ki, ədəbi yaradıcılığından odlu xətlə keçən bütöv Azərbaycan mövzusunda qələmə aldığı publisistik əsərləri, "Günəş Şərqdən doğur", "Sirri-xuda dünyamız", "Daşı atılmışlar "Dədə Qorqud" və "Koroğlu" dastanlarımıza daş atırlar" (silsilə məqalələr), M.Ə.Rəsulzadənin 130 illiyi münasibətilə qələmə aldığı məqalələri, eləcə də öz üslubuna görə yeni olan "Cavad Heyətimdi" poeması, çoxlu sayda şeir və poemaları ona yüzlərlə oxucu məhəbbəti qazandırıb.

O, ədəbiyyata aşiq Ədalət Nəsibova həsr etdiyi "Çal, Ədalət" adlı şeiri ilə gəlib. 1978-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuş bu şeir gənc Fəzailə böyük sevinc hissi yaşadıb. Həmin dövrdə "Azərbaycan", "Ulduz", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" kimi qəzet və jurnallarda imzası tez-tez görünməyə başlayıb. Bundan sonra dövri mətbuatda müntəzəm olaraq yaradıcılığını davam etdirib. 1980-1990-cı illərdə almanaxlarda əsərlərindən nümunələr dərc olunub. Əsərləri bir neçə xarici dilə tərcümə olunub.

Fəzail müəllim o zaman ədəbi mühitin görkəmli nümayəndələrindən olan İ.Şıxlı, M.İbrahimov, M.Cəfər, M.Topçubaşov, K.Talıbzadə, N.Hacıbəyli, B.Azəroğlu, M.Gülgün, H.Arif, C.Heyət və başqalarının əhatəsində ədəbiyyat, sənət söhbətlərindən, dəyərli fikirlərindən çox şeylər əxz edir.



1993-cü ildə "Yadda saxlar məni" şeirlər toplusu ilə ədəbiyyatda özünü təsdiq edən şair sonrakı illərdə "Gedək ata ocağına" , "Sökül, a dan yerim", "Tanrım dərdi mərdə verir", "O gedən oldu", "Bəs itən qeyrəti kim qaytaracaq...", "Üzü dönməz dağlar", "Atalı-analı dünyam" , "Sözdən saray qurmuşam", "60 yaşımın dastanı" kimi, şeir və poemalar, publisistik məqalələrdən ibarət ədəbi toplular şairin məhsuldar yaradıcılığından xəbər verir. Qeyd edək ki, F.İsmayıl öz ixtisasına da yaradıcılıq mövqeyindən həssaslıqla yanaşır, bu sahədən bəhs edən əsərlər meydana gətirir. "Uzun ömürlüyün sirləri" silsilə məqalələri oxucular tərəfindən maraqla qarşılandığından publisist bu mövzularda həmişə dövri mətbuatda çıxışlar edir.

Ulu öndərin vətənin ağır günlərində onu dağılmaq, parçalanmaq, məhv olmaq təhlükəsindən müdrik siyasəti ilə xilas etməsi, bundan sonrakı fəaliyyəti - ölkəni yenidən qurması, Azərbaycançılıq məfkurəsinin inkişafındakı əvəzsiz xidmətləri şair Fəzailin də güclü müşahidələrinin şahidliyinin müqabilində silsilə əsərlərinin mövzusu olub . Burda diqqətçəkən məqamlardan başlıcası odur ki, ötən yüzilliyin sonlarında, doxsanıncı illlərin əvvəlləri bədxahların, qaragüruhçuların ona qarşı apardıqları kampaniyaların baş alıb getdiyi vaxtlarda Fəzail İsmayıl Heydər Əliyevi böyük və güclü şəxsiyyət, dövlət xadimi olaraq gördüyü üçün heç nədən çəkinmədən, təzyiqlərə, təpkilərə dözərək onu Azərbaycanın yeganə xilaskarı, xalqın böyük oğlu kimi vəsf edib, qiymətləndirib:

*Sən ürəyi İslam nurlu azmanım,*
*Sən Xətaim, Atatürküm, Osmanım.*
*Səni görüb kor olacaq düşmanım,*
*Dinlə məni, Heydər babam, qüdrətim.*

Böyük şəxsiyyətlərə, xüsusilə yaradıcı insanlara həssaslıqla yanaşan şairin yaradıcılığında ustad Şəhriyara yazdığı şeirlər də diqqəti cəlb edir. Bunlarla tanış olan Şəhriyar da 1981-ci ildə Fəzailə bir oğul məhəbbəti ilə şeir yazıb və C.Heyətin "Varlıq" dərgisində çap etdirib. Həmin şeirdən bir bəndə diqqət edək:

*Qartalım, dağların başın alarsan,*
*Ulduza çatmağa qanad çalarsan.*
*Mən olmasam, məni yada salarsan,*
*Görüm haqdan yansın çırağın, oğlum,*
*Axsın ayna kimi bulağın, oğlum.*

İşıqlı təfəkkür sahibi olan Fəzail Böyükkişi sözün həqiqi mənasında şairdir.

Həmişə şairliyi həkimliyindən öndə olan Fəzail İsmayıl bundan sonra əsas potensialını elmi fəaliyyətə yönəltmək fikrindədir və öz ixtisası üzrə də uğurlar qazanacağına inanır. Elə biz də bu inamla yubilyarı təbrik edir, ona cansağlığı, gələcək fəaliyyətində müvəffəqiyyətlər diləyirik!

**ETM-in əməkdaşları**

# Mənalı ömür

- **Tomrisin cəngavərliyi, Nüşabənin müdrikliyi, Möminə xatunun siyası əqidə təlimi, Məhsətinin şairəliyi, Sara xatunun diplomatık bacarığı, Nigarın, Həcərin qəhrəmanlığı, Natəvan və Həmidə xanımın səxavəti, Yaxşı xanımın vəfalılığı ilə xalqımız fəxr etmişdir.**



Belə azərbaycan xanımlarından biri də bu günlərdə 80 illik yubileyi və əmək fəaliyyətinin 50 illiyi qeyd olunan normal fiziologiya kafedrasının baş müəllimi Rəmayə xanım Talışxanovadır.

O, 1938-ci il yanvar ayının 23-də Bakıda müəllim ailəsində anadan olmuşdur. 1962-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsini bitirərək təyinatla Bakı şəhəri Maştağa qəsəbəsindəki 7 saylı xəstəxanada 1969-cu ilə qədər həkim-pediatr vəzifəsində işləmişdir. Bu qısa vaxt ərzində öz səmimliyi, qayğıkeşliyi ilə tibb kollektivinin və qəsəbə sakinlərinin dərin hörmətini qazanmışdır.

1969-cu ildə təhsil aldığı doğma İstitutun normal fiziologiya kafedrasında, əvvəl baş laborant, assistent, sonra isə baş müəllim kimi fəaliyyətə başlamışdır.

Uzun müddətli fəaliyyətində o, azərbaycan və rus dillərində bütün fakültələrdə təcrübə məşğələləri aparır, gözəl və bacarıqlı eksperimentatordur.

Bir müddət kafedranın tədris hissə müdiri işləmişdir.

Rəmayə xanım təhsildə həmişə öz biliyi, böyük səyi və prinsipiallığı nəticəsində yüksək təlim keyfiyyətlərinə nail olmuşdur. O, atasının gözəl pedaqoji irsini, nəslinin yüksək ziyalılıq amalını özü üçün meyar götürmüşdür.

Onun mənalı həyat səhifələrində əlamətdar günlər, tarixlər az olmayıb. Fəaliyyəti dövründə 20 elmi məqalə, 2 metodik göstəriş yazmış, bir sıra elmi konfranslarda və qurultaylarda iştirak etmişdir. O işlədiyi müddət ərzində 2 dəfə (1976, 1984) Moskva şəhərində təkmilləşdirmə kurslarında olmuşdur.

Rəmayə xanım Azərbaycanın və Universitetin mədəni həyatında da fəal iştirak edir, mətbuatda məsləhət və məqalələrlə çıxış edir. 2001-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Bu göstəricilərə görə universitet, kafedra əməkdaşları və tələbələr arasında dərin hörmət qazanmışdır.

Rəmayə xanım Sabir müəllimə vəfalı həyat yoldaşı, Ülviyyə və Sanar üçün qayğıkeş ana, 4 nəvəsi üçün mehriban nənədir.

Rəmayə xanımı yubileyi münasibətilə təbrik edir, ona can sağlığı və uzun ömür arzulayırıq!

**Normal fiziologiya kafedrasının əməkdaşları**

# Uşaqların ürəyini yoxlatdırmaq mütləqdir

- **Azərbaycan Tibb Universitetində fəaliyyət göstərən peşəkar ürək cərrahları mütəmadi olaraq uşaqlar üzərində də müxtəlif xarakterli əməliyyatlar aparırlar. Bu yaxınlarda ikiyaşlı qızda "qulaqcıqarası çəpərin defekti" ilə bağlı əməliyyat aparılıb.**

ATU-nun Tədris Cərrahiyyə Klinikasının ürək-damar şöbəsinin müdiri, ürək-damar cərrahı, uzman həkim Mirəli Məcidov deyir ki, bu, anadangəlmə qüsurlar içərisində ən çox rastlanan patologiyalardan biridir: "Bu patologiyaları düzəltmək mümkün olmur. Ona görə də standart protokollara görə, bütün hamilə qadınlarda fetal exokardioqrafiya aparılır. Bu zaman dölün ürək funksiyası, ürəkdə hər hansı bir patologiyanın olub-olmaması dəqiqləşdirilir".



Uzman həkim Mirəli Məcidov 4 ildə təxminən 1000-dən çox açıq ürək əməliyyatı aparıb. Onun praktikasında qulaqcıq arası çəpərin defekti olan xəstələr arasında 2 yaşlı bu uşaq ən gənc xəstə olub.

M.Məcidovun sözlərinə görə, bəzi patologiyaların doğuşdan sonra aradan qaldırılması çox çətindir. Bəzən elə hallar olur ki, həkimlərin qərarı ilə dölün inkişafını sonlandırılmasına dair qərar verilir: "Azərbaycanda fetal exokardioqrafiya hələ yeni tətbiq olunur. Türkiyədə, Avropa ölkələrində bu, hamilə qadınların standart yoxlanışına aid edilib. Belə olarkən, döldəki patologiyalar hamiləlik zamanı aşkarlanır və lazımi tədbirlər görülür. Məsələn, hansısa patologiya aşkarlanarsa, bu zaman valideyn də, həkimlər də uşağın xəstəliklə doğulacağına hazır olur, xüsusi həkimlər tapılır, plan-proqram hazırlanır, uşaq doğulan kimi əməliyyatına hazırlıq işləri görülür və s."

Həkimin sözlərinə görə, bəzən körpədə 1 yaşınadək hansısa xəstəliyin olduğu bilinmir: "Bəzən xəstələrdə təsadüfi müayinə zamanı patologiyalar aşkarlanır. Adətən, uşaq düzgün qidalana bilməyəndə, təngənəfəs olanda, böyüməsində problem olduqda, tez-tez tənəffüs yolunun infeksiyası yaşandıqda, valideyn şübhələnib həkimə müraciət edir. Bəzən belə uşaqlar mərkəzdən kənarda, bölgələrdə yaşayır. O uşaqlarda xəstəlik təxminən 6-7 yaşında aşkarlanır. Bəzən hətta 50-60 yaşına qədər bu xəstəliklə yaşayan, amma bundan xəbərsiz olan xəstələr olur. Belə yaşlarda xəstə əməliyyat şansını itirmiş olur. Əgər bu cür patologiyaya vaxtında müdaxilə olunmazsa, xəstədə ürək çatızmazlığı formalaşır. Onu ürək və ağciyər transplantasiyası kimi ağır əməliyyatlar gözləyir. Bu da həm maddi, həm mənəvi yöndən xəstə üçün böyük travmadır".

Həkim bütün valideynlərə məsləhət görür ki, hər kəs öz uşağının ürəyini exokardioqrafiya etdirsin. Çünki bəzi xəstəliklər simptomsuz keçdiyinə görə, onların vaxtında aşkarlanması çox vacibdir. Belə olanda xəstəliyə vaxtında müdaxilə edib uşağı müalicə etdirmək mümkündür.

# Xəstənin ayağındakı taxta parçası 63 il sonra tapılıb və çıxarılıb

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında həkimlər daha bir uğurlu əməliyyat icra ediblər. Lakin ən maraqlısı odur ki, məhz ATU əməkdaşlarının sayəsində düz 63 il əvvəl xəstənin bədəninə girən yad cismi aşkarlamaq mümkün olub. Bu maraqlı hal haqqında ATU-nun Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahiyyəsi söbəsinin professoru, Dünya və Avropa Damar Cərrahları Assosiasiyasının üzvü Məhəmməd Kərimov məlumat verib.**



Pofessor M.Kərimovun sözlərnə görə, xəstə 3 yaşında olarkən yanan təndirə düşüb, bədəni geniş və dərin yanıq travması alıb. Bundan sonra uşaq üzərində çoxsaylı cərrahi əməliyyatlar keçirilib və həkimlərin səyi nəticəsində onun həyatı xilas edilib. Sonralar bu şəxs özü də həkim olub və insanların sağlamlığının keşiyində dayanıb.

"Lakin son 20 ildir ki, xəstəni sol baldırda olan və bugünə qədər sağalmayan trofiki xoralar ciddi narahat edirdi. Bununla əlaqədar müxtəlif ölkələrdə, o cümlədən Türkiyə, Rusiya, İranda dəfələrlə müalicə alıb, hətta xəstəxanalarda stasionar müalicə də alıb, amma effekti olmayıb – xora bağlanmayıb".

Nəhayət pasiyent ATU-nun Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahiyyəsi söbəsinə müraciət edib. Professor Məhəmməd Kərimov müayinə zamanı ilk baxışda əhəmiyyətsiz görünən kiçik bir detala diqqət yetiib. Sonradan məhz bu detal xoranın bağlanmamasının sirrinin açılmasında həlledici rol oynayıb: "Bir-birinə yaxın yerləşmiş xoraların dibi eyni rəngdə, eyni xarakterdə olan, çox qalın ərplə örtülmüşdü. Bu bizdə şübhə oyatdı və sonrakı müayinələr zamanı bunun yad cisim olması qənaətinə gəldik».

Əməliyyat zamanı doğrudan da xoraların dibində yad cismin olması təsdiqlənib. Məlum olub ki, 63 il əvvəl – xəstə uşaq ikən yanan təndirə düşəndə onun ayağına batan taxta parçası (10+2sm) hələ də bədənində qalırmış.

Əməliyyatdan 1 həftə sonra müayinə zamanı xoraların təmizləndiyi, sağlam qranulyasion toxumanın inkişaf etiyi müşahidə olunub. Pasiyent isə dözülməz ağrılardan, ağrıkəsici qəbulundan və gündəlik sarğılardan xilas olub.

# 23 yaşlı gənc üzərində ağır əməliyyat aparılıb

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında 23 yaşlı gənc üzərində unikal cərrahiyyə əməliyyatı həyata keçirilib.**



Klinikanın ümumi cərrahiyyə şöbəsinin müdiri, t.e.d., Mübariz Əliyevin sözlərinə görə, 1994-cü il təvəllüdlü Nurulla Əliyev sol böyrəyin törəməsi və ikitərəfli düyünlü ur diaqnozu ilə xəstəxanaya müraciət edib. İlkin olaraq, instrumental müayinələr edilib, kompyuter tomoqrafiya, MRT müayinələri aparılıb: "Sol böyrəyin törəməsi, kalsinasiya olunmuş exinokok kimi dəyərləndirildi. Və qalxanvari vəzidə kasifikasiya olunmuş, qalxanvari vəzin böyük ölçülü düyünləri aşkarlandı. Belə bir müştərək xəstəliklə, xəstəni əməliyyata hazırladıq. İlkin olaraq, xəstədə ikitərəfli strumektamiya əməliyyatı icra olundu və sonra böyrəyin laparoskopik rezeksiyasını icra etdik. Əməliyyatı klinikanın urologiya şöbəsinin professoru Əlimərdan Baxışovla birgə icra etdik".

M.Əliyev deyir ki, xəstədə böyrəyin törəməsi onun yuxarı qütbündə, həm də dalağa bitişik olub: "Biz bunu qarından keçmə ilə laparoskopik etdik. İlkin olaraq, həmin törəməni dalaqdan ayırdıq. Dalaqda qanaxma olmadı. Bundan sonra Əlimərdan Baxışovun asisstentliyi ilə balaca bir bel kəsiyi ilə sol böyrəyin laparoskopik rezeksiyası əməliyyatını icra etdik. Xəstə əməliyyatdan 5 gün sonra evə yazıldı".

Histoloji müayinə nəticəsində məlum olub ki, qalxanvari vəzdə olan düyünlər kalsifikasiya olunmuş düyünlərdir. Böyrəyin törəməsi isə osteomadır. İnstrumental müayinə metodlarının yazdığı kalsifikasiya olunmuş exinokok deyil: "Bu möhkəm konsistensiyalı bir şiş idi. Və bilirik ki, osteomalar vaxtında müalicə olunmasa, osteosarkomalara çevrilir. Ona görə də biz bu cavan oğlanın həyatını eyni zamanda, iki ciddi xəstəlikdən xilas etdik".

# "Əczaçılıq analizində spektrofotometriyanın tətbiqi" mövzusuna həsr olunmuş növbəti konfrans keçirilib

**Əczaçılıq kimyası kafedrası tərəfindən keçirilən silsilə metodik konfranslar davam edir. "Əczaçılıq analizində spektrofotometriyanın tətbiqi" mövzusuna həsr olunmuş növbəti belə konfrans yanvarın 29-da baş tutub.**





Kafedranın müdiri, əczaçılıq elmləri doktoru, professor Tahir Süleymanovun sözlərinə görə, bu, artıq sayca 10-cu belə seminardır. Və seminarın mövzusu təsadüfi seçilməyib: "Məlum olduğu kimi, müasir əczaçılıq analizini spektrometrik üsullar olmadan təsəvvür etmək mümkün deyil. Son 10 il ərzində bütövlükdə əczaçılıq analizinə həsr olunmuş elmi-tədqiqat işlərinin yalnız 10 faizə qədəri, bəzi ədəbiyyatlarda 7 faizə qədəri kimyəvi üsullarla, təxminən 60%-i isə spektral üsullarla, o cümlədən yüksək effektivli maye xromatoqrafiyası, qaz xromatoqrafiyası ilə mass-spektroskopiyanın birgə istifadəsinə əsaslanır.

T.Süleymanovun sözlərinə görə, seminarlar zamanı mövzuların seçilməsinin məqsədi müəllimlərin ixtisas səviyyəsini artırmaq, peşəkar kadrların gənc müəllimlər üçün təcrübə ilə bağlı paylaşımlarını həyata keçirməkdir.

Professor Tahir Süleymanov çıxışı zamanı xatırlatdı ki, Əczaçılıq kimyası kafedrası Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyilə 2015-2017-ci illərdə Qrant layihəsi icra edib. Nəticədə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin 24 may 2017-ci il tarixli əmri ilə kafedrada Respublikanın təbii sərvətləri əsasında yeni dərman vasitələrinin yaradılması üçün müasir Elmi-Tədqiqat, Tədris Əczaçılıq Laboratoriyası yaradılıb. Bu laboratoriya 3 hissədən ibarətdir: fitokimya, əczaçılıq texnologiyası və standartlaşdırma bölməsi. Laboratoriyada dərman vasitələrinin standartlaşdırılması məqsədilə ən müasir avadanlıqlar, o cümlədən infraqırmızı spektrometr, qaz xromatoqrafı və s.quraşdırılıb və istifadə olunur. Yeni laboratoriyada tələbələrin yeni metodika üzrə dərs keçməsi üçün hər cür şərait yaradılıb.

Laboratoriyanın standartlaşdırma bölməsində dərman preparatlarının standartlaşdırılması proseslərinin həyata keçirilməsi üçün müvafiq tədqiqat işlərinin aparılması nəzərdə tutulub.

Daha sonra əczaçılıq kimyası kafedrasının dosenti Vaqif İsgəndərovun "spektrofotometriyanın növləri" mövzusunda məruzəsi dinlənilib. Məruzə ətrafında müzakirələrdə kafedranın müəllimləri ilə yanaşı, II kurs magistrantları və digər ixtisas kafedralarının əməkdaşları da fəal iştirak ediblər.

# Rezidentlərin seminarı - Yan amiotrofik skleroz xəstəliyi haqqında müzakirə

Yanvarın 18-də ATU-nun Tədris Terapevtik Klinikasında professor-müəllim heyətinin iştirakı ilə nevrologiya və tibbi genetika kafedrasının rezidentlərinin seminarı keçirilib.

Seminarda çıxış edən direktorun müavini Adil Nuriyev bu seminarların silsilə xarakteri daşıdığını və bu seminarın rezidentlərin tibbi biliklərinin genişləndirilməsində də mühüm əhəmiyyət kəsb etdiyini bildirib.



Daha sonra məruzəçi qismində çıxış edən həkim-rezident Fatimə Əliyeva Yan amiotrofik skleroz xəstəliyi haqqında seminar iştirakçılarına məlumat verib. O, bildirib ki, bu xəstəlik müalicəsi olmayan xəstəliklər qrupuna daxildir. "Xəstəliyin etiologiyası məlum deyil. 5-10% hallarda xəstəliyin ailəvi formasına rast gəlmək olur. Sporadik forma isə daha çox kişilərdə 40-60 yaşlar arasında rast gəlinir. Simptomlar əmələ gələndən sonra orta yaşam müddəti 2.5-3.5 ildir. Xəstəliyin forması da önəmlidir. Bulbar formada yaşam müddəti 2.5 il, ətraflarda başlayan formada isə 3.5 ildir. 5 xəstədən biri 5 ildən çox, 10 xəstədən biri 10 ildən çox yaşaya bilər". Həkim-rezident xəstəliyin xüsusiyyətləri, klinik formaları, diaqnostikası və s. haqqında da seminar iştirakçılarına məlumat verib. Seminar professor-müəllim heyətinin müzakirəsi ilə davam etdirilib.

# Tədris Terapevtik Klinikada müəlimlər üçün seminar olub

**Yanvarın 19-da ATU-nun Tədris Terapevtik Klinikasında şüa diaqnostikası və şüa terapiyası kafedrasında tədris-metodik seminar keçirilib.**



Seminarı giriş nitqiylə açan kafedranın müdiri, dosent Məlahət Sultanova bu tədbirin mühüm əhəmiyyətə malik olduğunu vurgulayıb: "Yalnız müəllimlərin iştirak etdiyi belə seminarların keçirilməsində əsas məqsəd, müəllimlərin peşə hazırlıq səviyyəsinin yüksəldilməsi, müasir şüa diaqnostik müayinələrin əsas prinsiplərinin tələbələrə daha yaxşı aşılanması və yeniliklərin dərs prosesinə uyğunlaşdırılmasıdır".

M.Sultanova qeyd edib ki, seminarlar tədris proqramına uyğun olaraq keçiriləcək və kafedra əməkdaşları tərəfindən mövzular təqdim olunacaq. Tədrisin gedişində əyani vəsaitlərdən, kliniki müşahidələr və innovativ texnologiyalardan maksimum istifadə etmək tələbələrdə fənnin mənimsənilmə dərəcəsini artırır.

Seminarda "Şüa diaqnostik metodların texnologiyası və onun təşkili", "Rentgen şüalarının alınması, təbiəti və xassələri", "İonlaşdırıcı şüaların zərəli təsirindən qorunma tədbirləri" və "Rentgenoloji müayinə metodları" mövzuları müzakirə olunub. Kafedranın assistentləri R.Abdullayeva və t.f.d. H.Əsgərovanın mövzu ətrafında çıxışları dinlənilib. Məruzəçilər mövzunun əsas məqamları, rentgenoloji müayinə metodlarının diaqnostik alqoritmdəki yeri və rolundan danışıblar.

Kafedra müdiri M.Sultanova, dosent R.Həsənov, dosent G.Əliyeva, assistent G.Əhmədova mövzuya dair öz fikirlərini, irad və təkliflərini bildiriblər. Kafedra əməkdaşlarını düşündürən suallar məruzəçi tərəfindən ətraflı şəkildə cavablandırılıb.

II müalicə-profilaktika fakültəsinin dekanı İsrail Məhərrəmbəyli belə seminarların keçirilməsinin vacibliyini xüsusi vurğulayıb və kafedraya gələcək işlərində uğurlar arzulayıb.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedranın müdiri:**

- Psixiatriya kafedrası

**Kafedraların professorları:**

- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası - 1 yer
- Allerqologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 2 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,75 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- Histologiya,embriologiya və sitologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Stomatologiya (müalicə profilaktika və digər fakültələr üçün) kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Normal fiziologiya kafedrası - 1yer
- Bioloji kimya kafedrası - 2 yer
- Latın dili kafedrası - 1yer
- İctimai fənlər kafedrası - 2 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Histologiya,embriologiya və sitologiya kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası -1 yer

**Kafedranın müəllimi:**

- Latın dili kafedrası - 1 yer

**Elmi Tədqiqat Mərkəzi**

- Patoloji proseslərin maddələşdirilməsi və eksperimental terapiya şöbəsi (Şöbə müdiri) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08, 597-41-69, 597-43-23.**

# ATU-da 20 yanvar şəhidləri ilə bağlı silsilə tədbirlər keçirilib

**ATU-nun Əsaslı Kitabxanasında 20 Yanvar Şəhidlərinin anım günü qeyd olunub.**




Tədbiri açan elmi işlər üzrə prorektor Rauf Bəylərov 20 Yanvar faciəsi ilə bağlı respublikada silsilə tədbirlərin keçirildiyini qeyd edib: "Doğrudur, 1990-cı ildə mən Azərbaycanda olmamışam. O zaman Moskvada təhsil alan və işləyən həmyerlilərimlə birgə faciəni törədənlərə qarşı etiraz səsimizi ucaltmışıq. Ulu öndər Heydər Əliyev faciə gününün səhəri öz yaxınları ilə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlmişdi. Ulu öndər törədilən qırğınları pislədi və qırğına imza atanlara qəti etirazını bildirərək Moskva rəhbərliyini sərt şəkildə tənqid etdi. Öz cəsarətli çıxışı və mövqeyi ilə Azərbaycan xalıqını öz ətrafında birləşdirdi". Əsaslı Kitabxananın direktoru Ziyafət Eminova da faciə baş verən gecə sovet hərbi qoşunlarının heç bir xəbərdarlıq etmədən ağır və zirehli texnika vasitəsilə dinc əhalinin üzərinə hücuma keçdiyini, günahsız insanları qanlarına qəltan etdiyini ürəkağrısı ilə vurğulayıb. Bu qanlı faciəyə dünya ictimaiyyətinin hələ də biganə yanaşdığını təəsüf hissi ilə qeyd edib.

Tədbirdə çıxış edən ictimai fənlər kafedrasının professoru Fəxrəddin Məmmədov isə 20 Yanvar faciəsi ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib və prosesləri geniş şəkildə işıqlandırıb. Ermәni təxribatlarına cavab olaraq başlanan Milli Azadlıq Hərəkatını boğmaq məqsədi ilə Moskva rəhbərliyinin Azərbaycan xalqını cəzalandırmaq üçün belə bir qanlı faciəyə imza atdığını bildirib.

F.Məmmmədov Qanlı Yanvar gününü ağır gün adlandırmaqla yanaşı, həm də bu günü tariximizin şərəfli səhifələrindən hesab etdiyini vurğulayıb. İctimai fənnlər kafedrasının dosenti, Elbrus Sadıqov o zaman tələbə olduğunu və bir tələbə kimi etiraz aksiyalarına qoşulduğunu bildirib. O dövrdə tələbələrin aktivliyindən və faciə günü onların yaralılara necə kömək etməsindən söhbət açıb.

Natiqlər xalqımızın azadlığı uğrunda canlarından keçən şəhidlərin heç zaman unudulmadığını, hər zaman qəlblərdə yaşayacağını bildiriblər.

* * *

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında da 20 Yanvar şəhidlərinin xatirəsinin anılması ilə bağlı tədbir keçirilib. Tədbiri kafedranın müdiri, professor Məhbubə Vəliyeva açaraq iştirakçısı olduğu o günlərin dəhşətlərindən ürəkağrısı ilə danışıb. Milli Azadlıq Hərəkatında və Azərbaycanın müstəqilliyi uğrunda gedən mübarizədə universitetin tələbələrinin fədakarlığından, proseslərdə etdikləri fəallıqdan söhbət açıb. O, ağır günlərdə tələbələrin xəstəxanalarda yaralılara necə yardım göstərdiklərini xüsusilə qeyd edib.

M.Vəliyeva indiyədək bu qanlı faciəyə imza atanların cəzasız qaldıqlarını təəssüf hissi ilə vurğulayıb. Məhz ulu öndərin sayəsində bu faciənin unudulmadığını, hadisəyə siyasi qiymət verildiyini xatırladıb.



Tədbir zamanı 20 Yanvar faciəsini əks etdirən video-görüntü nümayiş etdirilib. Bu görüntü orada iştirak edənlərin əksəriyyətinin göz yaşlarına boğulmasına səbəb olub.

**M.CAVADOV**

## DİQQƏT!

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə
2. Kadlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

## *Etibarsız sayılır*

İctimai səhiyyə fakültəsinin VI kurs, 600[a] qrup tələbəsi Hüseynova Zəba Cavad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 117[r-5] qrup tələbəsi Qəhrəmanova Aynurə Novruzəli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 317[a-2] qrup tələbəsi Novruzov Nihad Əjdər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 758[b] qrup tələbəsi Ahmed Mahdi Ahmedin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 317[a-17] qrup tələbəsi Merve Doğar Ekrem qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Muradov Anar Murad oğluna 2007-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin və Elmi Tədqiqat Mərkəzinin kollektivi, ümumi gigiyena və ekologiya, qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədova qardaşı
**Nəzər müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın assistenti Fidan Qəniyevaya qaynanası
**Şükufə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dostenti Azər Vələdova əzizi
**Kəmalə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dostenti Tariyel İsmayılova əmisi
**İlyas İsmayılovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın professoru Əhməd Kazımova qaynatası
**Mahmud Çobanovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Ələsgər Vəliyevə əzizi
**Gülüm xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I mamalıq ginikologiya kafedrasının əməkdaşları assistent
**Afət Əfəndiyevanın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun anası professor Nəsibə xanıma və oğlu İsmayıla dərin hüznlə başsağlığı verirlər.

I uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın professoru Nəsibə Hüseynovaya qızı
**Afət xanımın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məhkəmə təbabəti kafedrasının əməkdaşları kafedranın laborantı
**Zərif xanım Cavadovanın**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının kollektivi kafedranın professoru Fəxrəddin Məmmədova əzizi
**Vaqif Məmmədovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ETM-in kollektivi iş yoldaşları Qamət Bayramova əmisi
**Bəylər Bəylərovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98[c]**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800